# Heydər Əliyev yoluna sədaqətli xidmət missiyası

## Prezident İlham Əliyev ölkəmizə ancaq Zəfər, başucalığı və uğur qazandırır

"Hər bir dövlətin bayrağı özü üçün müqəddəsdir. Təkcə yolunda kimlərin canından keçdiyini deyil, həm də hansı əngəlləri aşdığımızı xatırlasaq, əminliklə deyə bilərik ki, Müzəffər Ali Baş Komandanın Dövlət Suverenliyi Günü ərəfəsində Şuşada ucaltdığı üçrəngli bayrağımız müqəddəslərin müqəddəsidir".



Bu sözləri "Azərbaycan" qəzetinə siyasi şərhçi Sahib Alıyev deyib. O qeyd edib ki, müasir dövrdə heç bir dövlət öz bayrağını haqq etdiyi yerə sancmaq üçün Azərbaycan qədər məşəqqət çəkməyib, güc və enerji xərcləməyib. Heç bir xalq azərbaycanlıların etdiyi fədakarlığı etməyib. "Bu bayrağın işğaldan qurtulan yurd yerlərimizdə dalğalanmaması, 20 sentyabrı Dövlət Suverenliyi Günü kimi bayram etməməyimiz üçün təkcə tsexakronizm ideologiyası ilə zəhərlənənlər, "Böyük Ermənistan" xülyası ilə yaşayanlar deyil, onlardan geosiyasi alət kimi faydalanan və faydalanmaq istəyən bütün güclər əllərindən gələni etdilər. Amma bacarmadılar. Burada təbii ki, lider faktoru çox mühüm, hətta həlledici rol oynadı", - deyə o əlavə edib.

S.Alıyev vurğulayıb ki, əgər Ulu Öndər Heydər Əliyev bütün maneələri dəf edərək "Əsrin müqaviləsi"ni imzalatdırıb reallaşdırmasaydı, belə mürəkkəb regionda torpaqları işğal altında olan dövləti idarə etmək kimi ağırdan ağır bir yükü çəkməyi öz davamçısına və doğmasına tapşırmasaydı, paşinyanlar Şuşada yenə yallı gedəcəkdi.

Yəni 2023-cü il sentyabrın 20-də baş tutan antiterror tədbirlərinin də, ondan öncə torpaqlarımızın azad edilməsinin də ilkin ssenarisi, əslində, 1994-cü ilin 20 sentyabrında cızılmışdı. Əlbəttə, proseslərin gedişi onun ardıcıl təkmilləşdirilməsini tələb edir ki, bu da liderlər dəyişsə də, ənənə, əqidə və siyasətin dəyişmədiyi, sələflə xələfin potensialları arasında böyük uçurum olmadığı halda mümkündür.

O qeyd edib ki, Azərbaycanın bugünkü uğurları Prezident İlham Əliyevin Heydər Əliyev yoluna sədaqətli xidmətinin, daha doğrusu, Ulu Öndər kimi siyasət yürütməsinin, bacarıq, qətiyyət və iradə ortaya qoymasının nəticəsidir: "Əminəm ki, bu siyasət, bu yol, bu ənənə nəinki yaxın və orta, uzaq perspektivdə də Azərbaycan dövlətinə ancaq başucalığı, uğur və zəfər gətirəcək".

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2024.- 22 sentyabr (№207).- S.4.